# AZƏRBAYCAN XALQININ TƏBİƏTƏ OLAN SEVGİSİ ONUN MƏDƏNİYYƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Kamal Gülmalıyev**

*"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi, Naxçıvan*
*kamalgulmaliyev@gmail.com*

Azərbaycan coğrafi zənginliyinə, flora və fauna müxtəlifliyinə görə dünyanın əsas ölkələri sırasındadır. Cənubi Qafqazın bu qədim diyarının coğrafi zənginliyi onun mədəniyyətinə, folkloruna və insanlarının fəlsəfi dünyagörüşünə təsir etmiş, bu, Azərbaycan mədəniyyətinin də özünəməxsus xüsusiyyətlərlə formalaşmasına səbəb olmuşdur. Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanında "coşğun axan gözəl suyun qurumasın, kölgəlicə qaba ağacın kəsilməsin" kimi ifadələr azərbaycanlıların ulu babalarının – oğuzların təbiətə olan sevgisini və sayqısını ifadə edir.

Azərbaycan xalqının ekoloji mədəniyyəti, təbiətə olan sevgisi onun qədim tarixə malik bayramlarında və adət-ənənələrində də öz əksini aydınlıqla tapmışdır. Təsadüfi deyil ki, Növruz bayramında səməni cücərdilməsi saf, təmiz təbiətə olan inancı ifadə edir.

Azərbaycan xalqının mədəniyyət tarixinin əsas mənbələrindən olan "Kitabi-Dədə Qorqud" dastanında qız istəmə – elçilik zamanı deyilən "başı qarlı dağlarını aşmağa gəlmişəm, coşğun axan saf sularını keçib gəlmişəm" kimi sözlər zəngin mədəniyyətə malik Azərbaycan xalqının "başı qarlı dağlara", "coşğun axan saf sulara" verdiyi önəmi göstərməklə yanaşı, onun dünyagörüşünun formalaşmasında saf, təmiz təbiətin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini də göstərir.

Əsas faktlardan biri kimi qeyd etmək lazımdır ki, I-VI əsrlərə dair dünya əhəmiyyətli abidə olan Əlincə qalasının "Kitabi-Dədə Qorqud" dastanında həm də qoruq kimi təsvir edilməsi, bu qoruqda qaz, toyuq, geyik, dovşan kimi heyvanların qorunub saxlanılmasını Azərbaycanda qoruq mədəniyyətinin ilkin rüşeyimlərindən biri kimi qəbul etmək olar. Bu mənada Əlincə qalası nəinki Azərbaycanda, hətta dünyada da orta əsrlərə dair ilkin qoruqlardan biri kimi göstərilə bilər.

Azərbaycan xalqının folklorunda təmiz, pak suya, yaşıl ağaca, çiçəkli çəmənə, başı qarlı dağlara, gur axan çaylara xüsusi inam vardır. Görülən yuxunun suya deyilməsi, bulaqdan su içəndən sonra bulağa təşəkkür edilməsi, axar suların təmiz saxlanması Azərbaycan xalqının qədim inancları, eləcə də ekoloji dünyagörüşünun daxilində xüsusi yer tutur. Yaş, yaxud yaşıl ağacın kəsilməsinin, qol-budağının qırılmasının günah kimi qəbul edilməsinin hələ qədim dövrlərdən Azərbaycan xalqının inancları içində xüsusi yeri vardır.

Müasir Azərbaycanın əraziləri daxilində formalaşmış xalqların inanclarında da təbiətə olan inanc xüsusi yerlərdən birini tutur. Antik müəlliflərdən olan Strabon qeyd edir ki, Albaniyanın əhalisi dağdağan ağacına inanır. Bu gün Azərbaycanın bəzi kəndlərində dağdağan ağacının kəsilməsinin günah olduğu inancı onu düşünməyə əsas verir ki, təbiətə olan inanc hələ qədim dövrlərdən Azərbaycanda yaşayan insanların təbiətə sevgisinin, bu gün isə ekoloji dünyagörüşünün formalaşmasının ilkin anlayışlarından biri olmuşdur.

Ona görə də hələ orta əsr Azərbaycan ədəbiyyatında dağdağan ağacına, sərv ağacına, palıd ağacına, qaba ağac kimi adlandırılan, sərin kölgəsi olan müxtəlif ağaclara xüsusi məhəbbətin ifadə edilməsi, diqqət göstərilməsi ulu babalarımızın Azərbaycan təbiətinə duyduğu sayqının da bir ifadəsidir. Belə ağaclar bizə onların həm də məhəbbət, müqəddəslik yadigarlarıdır.

Azərbaycan xalqının təbiətə olan sevgisi onun mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan xalçaçılıq sənətində də xüsusilə qabarıq şəkildə öz əksini tapmişdir. Bunun nəticəsidir ki, digər xalqlara məxsus xalçalardan fərqli olaraq, Azərbaycan xalçalarında daha çox zövq oxşayan təbiət təsvirlərinə, nəbati naxışlara üstünlük verilir. Orta əsr Azərbaycan rəssamlarının əsərlərində olan hadisələrin demək olar ki, hər biri təmiz, saf təbiətin qoynunda təsvir edilir. Bu mənada təbiətin təmizliyi və saf təbiətin gözəlliyi diqqət mərkəzində saxlanılır.

Azərbaycan xalqının mədəniyyətində, ədəbiyyatında, folklorunda olan təbiətə münasibət onun fəlsəfi dünyagörüşünə mühüm təsir etmişdir. Buna görə də Azərbaycanda qədim dövrlərdə ağac kultuna, dağ kultuna, müxtəlif heyvan kultlarına olan inanclar təbiətə olan münasibətin başqa bir ifadəsidir. Bütün bunlar isə Azərbaycan xalqının təbiətə olan münasibətinin formalaşmasında mühüm rol oynamış, xalqın dünyagörüşündə təbiətə olan inancla yanaşı sevgi və sayqı da əsas yerlərdən birin tutmuşdur.

Bu gün Azərbaycan xalqının ekoloji dünyagörüşünün formalaşmasında onun qədim dövrlərdən bu günə qədər gələn tarixi köklərinin – mədəniyyətinin, folklorunun, ədəbiyyatının və fəlsəfi dünyagörüşünün xüsusi əhəmiyyəti vardır.

Ümummilli Lider Heydər Əiyevin "bir ağacı kəsən sanki mənim bir qolumu kəsir" fikri təhlil olunması zəruri olan mühüm anlayışlardan biridir. Bu mənada Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş qərarlar, qanunlar və sərəncamların Azərbaycanın təbiəti üçün mühüm əhəmiyyəti olmuşdur. Onun başçılığı ilə aparılan ardıcıl və müntəzəm işlər böyük səmərə vermişdir.

Bu gün Ulu Öndərin müdrik siyasətini davam etdirən Prezident İlham Əliyev təbiətə olan dövlət qayğısını daima diqqətdə saxlayır. Prezidentin Azərbaycan təbiətinin qorunması istiqamətində apardığı siyasət həm də gələcək nəsillərə miras qoyulan dəyərlərdən, maddi-mənəvi sərvətlərdən biridir.